# TÜRK DÜNYASININ MEŞHUR MÜTEFEKKİRİ NİZAMİ GENCEVİNİN ORTA ASR ŞERQ PERİPATETİZM FELSEFESİNDE YARATDIĞI İNSAN AMİLİNİN ROLU

Sabuhi İBRAHİMOV*

**Özet:** Məqalədə Türk dünyasının meşhur mütefekkiri Nizami Gencevinin orta asr şerq peripatetizm felsefesinde yaratdığı insan amilinin rolu haqqında geniş tehliller aparılaraq onun yaratdığı her bir şeir nümuneleri ehemiyyetli derecededeyerlendirilmişdir. Aparılmış araşdırmalar zamanı məlum olmuşdur ki, böyük mütəfəkkirin dərin və hərtərəfli biliyə malik olması onun fəlsəfi yaradıcılığına müsbət təsir göstərmişdir. Eyni zamanda onun yaratdığı əsərlərdə fəlsəfi şeir nümunələri klassik irsimizin öyrənilməsi baxımından önəmli olmas vurğulanmışdır.Araşdırmalarda o da müəyyən olmuşdur ki, Nizami Gəncəvi orta əsr şərq peripatetizm fəlsəfəsində özünəlayiq mövqedə dayanmışdır. Onun əsərlərində verilən hər bir fəlsəfi sözlərin dil və üslubiyyat sahələriayrı-ayrılıqda öz aktuallığı ilə seçilir, bəşəriyyətdə insan amilinin rolunun nə qədər zəruri olduğunu anladırvə həmçinin gələcəkdə yeni-yeni dialektik şivələrin tədqiq olunması üçün zəruri amillərin yaranmasına imkan yaratmış olur.

Aparılan araşdırmalardan məlum olur ki, görkəmli şairimiz Nizami Gəncəvinin əsərlərində özünə yer alaninsan amilinin rolu fəlsəfi şeir nümunələri orta əsr şərq peripatetizmin müxtəlif aspektləriniəhatə edir, onun həyat və yaradıcılğının öyrənilməsi, mənimsənilməsi üçünzəmin yaradır və gələcək nəslin maariflənməsinə xidmət edir.

***Açar sözlər:****Nizami Gəncəvi, orta əsr, peripatetik, fəlsəfə, insan.*

## The Role of the Human Factor Created By Nizami Gandjavi in the Medieval Eastern Peripatetic Philosophy

**Abstract:** The article provides an extensive analysis of the role of the human factor in the philosophy of medieval Eastern peripateticism by Nizami Ganjavi, and each poem sample is significantly evaluated. During the research, it was found that the deep and comprehensive knowledge of the great thinker had a positive impact on his philosophical creativity. At the same time, examples of philosophical poems in his works are important in terms of studying our classical heritage. The research also revealed that Nizami Ganjavi stood in a worthy position in the philosophy of medieval Eastern peripateticism. The linguistic and stylistic areas of each philosophical statement given in his works are distinguished by their relevance, making it clear how necessary the role of the human factor is, and also creating an opportunity for the creation of necessary factors for the study of new dialectical dialects in the future.

The research shows that the role of the human factor in the works of our outstanding poet Nizami Ganjavi, philosophical poetry examples, cover various aspects of medieval Eastern peripateticism, create a basis for the study and assimilation of his life and work, and serve to educate future generations.

***Keywords:*** *Nizami Ganjavi, medieval, peripatetic, philosophy, human.*

## Giriş

İnsan yer üzünün əşrəfi, ən ali, ən qüdrətli, ən ülvi varlığıdır. İnsan ictimai şüurun yaradıcısı, ictimai fəaliyyətin və mədəniyyətin subyektidir. "İnsan" hələ çox qədimdən fəlsəfi problem olaraq öyrənilir. Qədim Yunan filosoflarından Protaqor insanı dünyadakı bütün hər şeyin ölçüsü hesab etmişdir. İnsanın mahiyyəti və fəaliyyəti orta əsr Şərq fəlsəfəsində də mühüm problemlərdən olmuşdur. Şərq filosofları insanın mahiyyət və fəaliyyətində iki başlıca xəttin olduğunu göstərmişlər. Onların fikrincə bunlardan biri özünü dərketmə, digəri isə cəmiyyəti dərk etməkdir.Orta əsr Şərq fəlsəfəsində özünə məxsus yer tutan "Saflıq qardaşları" aləmi böyük insan, insanı kiçik aləm adlandırmışlar. Onların fikrincə insan quruluş etibarilə fəzilətli şəhər, onun nəfsi isə həmin şəhərin padşahıdır. "Saflıq qardaşları" ensiklopediyalarına "İnsanın qarşılıqlı yardıma ehtiyacı" adlı xüsusi bölmə salmışlar.

Şərq peripatetizminin görkəmli nümayəndəsi Əbu Əli ibn Sina "Etikaya dair traktat" əsərində yazırdı: "İnsanın özü-özünə (nəfsinə) şeylərdən ən yaxınıdır, özünə qarşı onların ən cömərdidirsə və özünə diqqətdə ən üstündürsə idarəetmə növlərindən onun başlamalı olduğu birinci şey özünü idarəetməkdir" (3, s. 3).

Orta əsr mütəfəkkirlərindən Nəsirəddin Tusi insanı aşağıdakı kimi xarakterizə etmişdir. "Dünyanın intizamı, məişətin nizamı əməklə hasilə gəldiyinin insan növü əməksiz

---

*Dos. Dr. Azerbaycan Milli İlimler Akademisi Nahcevan Şubesi Elyazmalar Fonu, Elyazmaların Kataloglama Daire Başkanı ve Nahcevan Devlet Universitesinin dosenti, Filologiya elmleri doktoru. s.ibrahimov71@mail.ru

yaşaya bilməz. Əmək köməksiz, kömək isə icmasız ola bilməz. Deməli insan növü öz təbiəti ilə icmaya möhtacdır" (3, s. 3).

Orta əsr filosoflarından Siracəddin Urməvi də insanın fəlsəfi təhlilinə geniş yer vermişdir. İnsan mənəviyyatına mühüm əhəmiyyət verən filosof insanları fəzilətlərə yiyələnməyə, rəzilətlərdən qaçmağa çağırmışdır. Urməvi insanın özünü idarə etməsini yüksək məziyyət sayaraq bunu fəlsəfi cəhətdən təhlil etmişdir. O yazırdı: "Xasiyyət nəfsdə sabitləşmiş möhkəm bir tərkibdən ibarətdir ki, ondan baş verən işlər hər hansı fikrə ehtiyac olmadan asanlıqla meydana çıxır"(3, s. 3).Urməvinin fikrincə insanın xilqəti onun zahiri forması, xasiyyəti isə daxili formasıdır. İnsandakı bütün yaxşı və pis xasiyyətlərin başlanğıcı isə mövcud 4 qüvvəyə - əql qüvvəsi, şəhvət qüvvəsi, qəzəb qüvvəsi və ədalət qüvvəsinə bağlıdır. İnsanın xarakteri bu qüvvələrin öz səyi ilə nə dərəcədə mötədilləşdirilməsi ilə formalaşır.

Görkəmli filosof Şihabəddin Suhrəvərdinin də insan haqqındakı fikirləri maraqlıdır. Filosof insanı işıqlı ədalətli xeyirxah əməllərə çağırır. Haqsızlığa qarşı çıxır, ictimai ədalət ideyasını təbliğ edirdi. Orta əsr Şərq peripatetikləri insanın xoşbəxtlik və bədbəxtliyinin açarını onun öz əlində ağıl və idarəsində axtarmışlar. İnsan duzğun ardıcıl və müstəqil olaraq elmə, mədəniyyətə, bilik və hikmətə yiyələnərsə daim yüksələr, naqis əməllərdən çəkinər, kamilliyə çatar. Lakin insan yaradıldığı fitri dərəcədə oturub cilovu nəfsinin ixtiyarına versə, nəfsi onu aşağıya heyvani mərtəbəyə sövq edər. İnsan fitrətindəki ikili meyl baxımından Şərq mütəfəkkirləri insanın peyğmbərlərə, imamlara (rəhbərlərə), filosoflara və müəllimlərə ehtiyacı olduğunu göstərmişlər.

Orta əsr Şərq peripatetiklərinin insana verdiyi qiymət, onun mahiyyətinin fəlsəfi təhlili və onun yaxşılığa doğru kamilləşməsinin cəmiyyət üçün zəruriliyi haqqındakı fikirləri dövrün bədii fikrində də özünə məxsus yer tutmuşdur. İnsan mahiyyəti onun bədbəxtliyi və kamilliyi ideyalarının bədii cəhətdən ən mükəmməl ifadəçilərindən biri dahi Azərbaycan mütəfəkkiri və şairi Nizami Gəncəvi olmuşdur. Nizami yaradıcılığında insan xilqəti şərəfli yarandığından o zəngin mənəviyyatı, böyük əməllər yolçusu olmalıdır. Bunun üçün insandan dərrakə, bacarıq, ağıl, kamal və mərifət tələb olunur. Bunlara sahib olmaq üçün isə insanların təhsil və tərbiyəyə ehtiyacları vardır.

Nizami Gəncəvi insan və cəmiyyətə, ümumi mövcudatın, kainatın özünəməxsus tərkib hissəsi kimi baxmış, onlar arasındakı münasibətləri daim izləmişdir. Mütəfəkkir şair təbiət və cəmiyyətdə baş verən hadisələri insan mənafeyi baxımından qiymətləndirmişdir.

Şərq dini və fəlsəfi fikrində insan yer üzünün ən kamil xilqəti kimi səciyyələndirilir. Şair bu mənada "Mən Adəm oğluyam, mələklərdən üstünəm" – deyir. Şərq peripatetikləri və işraqilər isə insanı ağlına və idrak qabiliyyətinə görə digər canlılardan üstün tuturdular.

## 1.Nizami Gəncəvi Yaradıcılığında Insanın Mahiyyəti, Kamilliyi və Xoşbəxtliyi

Şərq peripatetizm orta əsrlərdə bütövlükdə Aristotelin və onun davamçılarının qismən də Platonun və neoplatonçuların əsərləri əsasında Yaxın və Orta Şərqdə filosofların yaratdığı elmi-fəlsəfi təlimdir. Ona görə də Şərq peripatetiklərinin yaradıcılığında insanın mahiyyəti, kamilliyi və xoşbəxtliyifikirləri Antik Yunan fəlsəfəsinin atası Aristotelin fikirlərinə əsaslanır. Qeyd etmək lazımdır ki, Şərqdə Ərəstun kimi adlandırılan bu böyük filosof müdriklərdən Nizami Gəncəvinin "İsgəndərnamə" poemasında bəhs edilir. Bu mütəfəkkirlərin barəsində dedikləri fikirlər Nizaminin də diqqətini cəlb etmiş, "İsgəndarnamə"də bunlardan misallar gətirmişdir.

İnsan varlığının özünəməxsusluğu,insanın mahiyyəti, kamilliyi və xoşbəxtliyi barədə Şərq peripatetik filosofları geniş mühakimə yürütmüşlər. İnsanın fiziki varlığı barədə Bəhmənyar yazır: "Hər bir bəndənin təbiəti, materiyası, forma və aksidensiyası var. Bədənin təbiəti o deməkdir ki, onun rahatlığı dəyişir və ilkin mövcudatını təşkil edir. Bədən forması-mövcudatın mahiyyətidir, ona görə insan mövcud olur. Bədənin materiyası-bədəni aparandır,

forma yaradandır, Aksidensiya-bədənə məxsus əlamətlərdir və ya xaricdən gələndir, forma ilə materiya bir yerdə (onun) insanın görkəmini yaradır” (3, s. 5).

İnsanın fiziki varlığından danışan peripatetiklər həm də onun sosial funksiyalarına ciddi əhəmiyyət vermişlər. Aristotelin özü bu məsələ ilə əlaqədar belə deyir: “İnsan övladı öz mövcudluğunda incəsənətə və təfəkkürə malikdir. İnsanlarda təcrübə yaddaş hesabına yaranır, eyni əşya barəsindəki xatırlama təcrübənin mənasını artırır”(3, s. 5).

Böyük ideyaların təməlini qoyan Nizami Gəncəvi humanizm, şəxsiyyət azadlığı və istibad hakimiyyətindən xilas olmaq kimi ideallarla yanaşı bitkin eşq və məhəbbət fəlsəfəsi yaratmışdır. Onun mənəviyyat sahəsində toxunduğu problemlər bəşəriyyət durduqca öz orijinallığını saxlayacaqdır. Nizami Gəncəvinin xoşbəxtlik, səadət və habelə insanlıq haqqındakı dərin müddəaları hər zamanın insanları üçün mənalıdır.

Şərq mütəfəkkirlərinin təbiət və cəmiyyət haqqında yaratdığı təlim bəşər mədəniyyəti üçün misilsiz nailiyyətdir. Onlar insanı yer üzünün əşrəfi adlandırmış və onu maddi və mənəvi amillərlə izah etmişlər. İnsanın bioloji və ictimai varlıq olmasına dair fəlsəfi ideyaları Şərq mədəniyyətinin zənginləşməsində mühüm rol oynamışdır.

Ümumiyyətlə Nizami Gəncəvi yaradıcılığında qeyd olunmalıdır ki, şərq peripatetizmi orta əsrlərdə bütövlükdə Aristotelin və onun davamçılarının qismən də olsa Platonun və neoplatonçuların əsərləri əsasında Yaxın və Orta Şərqdə filosofların yaratdığı elmi – fəlsəfi təlimdir. Ona görə də Şərq peripatetiklərinin insan amilinin varlığı və onun özünəməxsusluğu: insanın sosial vəzifələri, məsuliyyəti və azadlığı barəsindəki fikirləri Antik Yunan fəlsəfəsinin atası Aristotelin fikirlərinə əsaslanır. Qeyd etmək lazımdır ki, Şərqdə Ərəstun kimi adlandırılan bu böyük filosof müdriklərdən Nizami Gəncəvinin “İsgəndərnamə” poemasaında maraqlı epizodlarla geniş qeyd edilir. Bu mütəfəkkirlərin insan barəsində dedikləri fikirlər Nizaminin də diqqətini cəlb etmiş, “İsgəndərnamə”də bunlardan misallar gətirmişdir.

Yaxşısan, pis işə əsla qoşulma,
Vəhşilik eyləmə, gəl vəhşi olma.
Pis, yaxşı nəyin var demək malındı,
Lakin sənə vacib olan öz kamalındı (3, s. 5).

### 2.Nizami Gəncəvi Yaradıcılığında İnsan Amilinə Verilən Dəyər

Nizaminin fikrincə insan, öz biliyi, hünəri, zəhmətkeşliyi və ədaləti ilə seçilməlidir. Özünə zəhmət, dostlarına isə rahatlıq axtarmalıdır. Xalq uğrunda zəhmətə qatlaşmağı yüksək insani keyfiyyət sayan sözləri ibrətamizdir. “Səy et ki, xalqın işinə yarayasan, əməlinlə xalq geysin zər-xara”, “Gül kimi xoş xasiyyətli ol ki, xoş ətrin dünyanı bürüsün”(3, s. 5).

Nizaminin “İsgəndərnamə” poemasında təsvir etdiyi ədalətli şəhərin sakinləri öz insanlığına və humanist keyfiyyətlərinə görə də fərqlənirdilər. Həmin insanlar aciz olana gülməz köməklik edər, hər hansı bir çətinlikdə olan insana sevinməz, çətinlikdən onu xilas edər. Bir-birindən mümkün olan heç nəyi əsirgəlməzlər. İnsanlıq haqqında Nizaminin qənaəti ondadır ki, dünya yaxşılar üzərində dayanıb, əgər yaxşılıq itərsə dünya dayanmaz o da itər. Bir beytində də belə deyir:

Quyuya salsanda yaxşılığı bil,
Yenə qayıdacaq o itən deyil.
Pislik barəsində isə belə deyir:
Yamanlıq eyləsə özgəyə hər kəs,
Özünə qayıdar hədərə getməz (3, s. 6).

Ümumiyyətlə nəzərə almaq lazımdır ki, Orta əsr Şərq peripatetiklərinin əksəriyyəti demək olar ki, insan amilinə verdiyi qiymət, onun mahiyyətinin fəlsəfi təhlili və onun yaxşılığa doğru kamilləşməsinin cəmiyyət üçün zəruriliyi haqqındakı fikirləri dövrün bədii fikrində də özünəməxsus yer tutmuşdur. Bu baxımdan insan amilinin mahiyyəti, onun bədbəxtliyi və kamilliyi ideyalarının bədii cəhətdən ən mükəmməl ifadəçilərindən birinin

məhz dahi Azərbaycan mütəfəkkiri və şairi eyni zamanda peripatetik filosof Nizami Gəncəvi olduğu göstərilməlidir. Məlumdur ki, Nizami yaradıcılığında insan xilqəti şərəfli yarandığından o zəngin mənəviyyatı, böyük əməllər yolçusu olmalıdır. Bunun üçün insandan dərrakə, bacarıq, ağıl, kamal və mərifət tələb olunur. Bunlara sahib olmaq üçün isə insanların təhsil və tərbiyəyə ehtiyacları vardır.

Hələ qədim dövrlərdən insanlar ətrafda gördüklərini, hiss etdiklərini, duyduqlarını sözlə, dil vasitəsilə ifadə etməyə çalışmış və getdikcə buna nail olmuşlar. Həmçinin ictimai varlıq kimi ünsiyyət prosesində öz istəklərini, duyğularını, hisslərini bölüşməyə çalışmış və bu cür tələbat dilin zənginliyinə zəmin yaratmışdır.Nəsirəddin Tusi deyirdi: "Alimlər təfəkkür haqqında müxtəlif mülahizələr söyləsələr də, bütün təriflərin xülasəsi budur ki, təfəkkür insan batininin başlanğıcdan məqsədə doğru seyr etməsidir" (2, s.18).

**3.İnsan Amilinin Formalaşmasında Kitabxanaların Rolu**

Azərbaycanın ən qədim mədəniyyət mərkəzlərindən biri olan Naxçıvan orta əsrlərdə nəinki yerli alimlərə, o cümlədən, Azərbaycanın bir çox şair və yazıçılarına dəstək olmuşdur. Bəzi qeydlərdən məlum olur ki, orta əsrlərdə Azərbaycanda kifayət qədər kitabçılıq mədəniyyəti olmuş və mütəfəkkirlər, yaradılmış kitab fondunda lazımınca faydalanaraq cahanşümul əsərlər yazmışlar. Nizami Gəncəvi "İsgəndərnamə" əsərində bunu xüsusi qeyd edərək yazır:

İsgəndər haqqında heç bir əsərdə,
Məlumat görmədim yığcam bir yerdə.
Sözlərlə dolmuşdu xəzinə içi,
Ancaq hər nüsxə bir dağınıq inci.
Hər köhnə nüsxədən əsas olaraq,
Onu öz şerimlə bəzədim ancaq.
Ən qədim tarixi əsərlərdən mən,
Yəhudi, nəsrani, pəhləvilərdən.
Ən incə sözləri əlimə saldım,
Qabığı ataraq məğzini aldım.
Müxtəlif dillərdən yığdığım sözlər,
Bunlardan düzüldü yazdığım əsər (4, s. 121).

Nizami Gəncəvi yazdığı bir neçə misralarda yığcam şəkildə orta əsrlərdə Azərbaycanda mövcud olan kitab fondunun mənzərəsi verilir. Bəzi mənbələrdən məlum olur ki, gəncəlilər Atabəylərdən xahiş edirlər ki, Gəncə şəhərində kitabxana yaradılsın. Onların arzusu tez bir zamanda həyata keçir və orada "Dər əl-kutub" adlı kitabxana yaradılır. Azərbaycan Atabəylər hökmdarı həmin kitabxananın xəzinədarını isə fitri istedada malik, bir neçə xarici dilləri bilən Həddad ibn Bəkran ən-Naxçıvanini ora göndərir. Yaqut Həmavinin verdiyi məlumata görə həmin dövrlərdə Gəncədə "Dər əl-kutub" ("Kitablar evi") adlı böyük kitabxana olmuşdur. "Bu kitabxananın xəzinədarı isə Həddad ibn Bəkran Əbulfəzl ən-Naxçıvani imiş" (4, s. 121).

XII-XIII əsrlərdə Naxçıvanda mədəni irsə nəzər saldıqda bir daha görürük ki, Nizami yaradıcılığında mətn xüsusiyyətləri nə qədər zəngin və maraqlıdır. Nizami yaradıcılığında ən mühüm yeri tutan onun Atabəylərə həsr etdiyi "Xosrov və Şirin" əlyazma əsəridir ki, həm məna çalarları ilə, həm də poetik dünyagörüşü ilə dünyanı heyran edir. Əsərdə insani keyfiyyətlərə malik olan, insan amilinin dəyərləndirilməsini qoruya bilən və inkişaf etdirən Azərbaycan hökmdarı Atabəy Məhəmməd Cahan Pəlevanı mədh edərək deyir:

Şamil olan zaman hər kəsə rəhmət,
İki sahib adı oldu Məhəmməd.
Məhəmmədin biri son peyğəmbərdir,
Biri də son şahdır, bu gün ömr edir.

Biri dini etdi zülmdən azad,
Biri ədalətlə dünyanı abad.
Bu adla fəxr edən hər iki dünya,
İki "mim" hərfindən taxmışdır sırğa (1, s. 3).

**4.Orta Əsrlərdə İnsan Probleminin Qoyuluşu**

Orta əsrlərdə insan probleminin qoyuluşu təshir adlı məfhumla bağlıdır. Yəni tabe etmək, özündən asılı etmək. Təshir baxımına əsasən bütün varlıqlar insanın əmrinə və xidmətinə verilir. Çünki, insan yer üzündə Allahın təmsilçisi və nümayəndəsidir. İslam dininə görə isə insan Allahdan sonra böyük qüdrət və kiçik yaradıcıdır.

Odur ki, Şərq peripatetik fəlsəfəsində insan nadir bir varlıq kimi "əşrəfi məxluqat" adlandırılıb. Yaşamaq, yaratmaq, nəsil törətmək və davam etdirmək kimi səciyyələndirərək göstərilir ki, onun yaşamasının ilkin müqəddəm şərti, insan cisminin həyatı varlığıdır. Şərqdə ənənəvi hikmətli müddəalara əsasən sağlam düşünmək üçün insanın cismani həyatı təmin olunmalıdır. İnsan canlı cisim kimi həyat qanunları ilə bağlıdır. İnsan varlığı cisim və ruhun vəhdətindən ibarətdir.

Qeyd etmək lazımdır ki, "gələcəyi düşünmək" ideyalı şərqin ən əsas ideyalarından biridir. Şərq peripatetik filosoflarının fikrincə insan yaşadığı müddətdə mütləq gələcəyi düşünməlidir. Çünki, insanı bir insan kimi formalaşdıran onu həqiqi insan edən gələcək haqqında düşüncələridir. Doğrudan da elə insanı digər canlılardan fərqləndirən əlamətlərdən biri də onun gələcəyi düşünməsidir. Şərq fəlsəfəsində "gələcəyi düşünmək" insanı daimi müşaiyyət edən "müəyyənedici amillərlə" əlaqədardır. Müəyyənedici amil onların fikrinə görə, elə bir qüvvədir ki, o, insanın bütün hərəkətlərini, əməllərini, düşüncə tərzini,başqaları ilə ünsiyyət və münasibəti formalaşdırır.Əlbəttə,onuda qeyd etmək lazımdir ki,Şərqdə müəyyən edici qüvvələr insana o zaman müyəssər ola bilər ki, o, seçilmiş uca "şəxsiyyətdən" bəhrələnsin. Şəxsiyyətdən bəhrələnməyi hansı meyarlarla müəyyən etmək sualına cavab verən şərq alimləri insanları iki qrupa bölürlər.

1) Hadisələri şəxsi mənafe və zərər baxımından;

2) Hadisələri vəhy və əqidə baxımından qiymətləndirən insanlar.

Buradan da insanlarda iki cür əxlaqi mönasibət əmələ gəlir.

1)Fazilə əxlaq;

2)Fasidə əxlaqı.

Beləliklə, insanlar iki yerə bölünürlər: fəzilətli və rəzilətli insanlar.

Şərq filosofları bu qənaətə gəlirlər ki, insanlarda müəyyənedici qüvvə iki cürdür: müsbət və mənfi. Müsbət müəyyənedici qüvvə o zaman insana müyəssər olur ki, o, hadisələri düzgün əqidə əsasında qiymətləndirsin və seçilmiş uca "şəxsiyyətdən" bəhrələnsin.

Şərq fəlsəfəsində göstərilən gerçəkliklər bir-birilə sıx surətdə bağlıdır. Məhz bunun nəticəsində insan səmərəli fəaliyyət göstərir və müsbət işlərlə məşğul olur. Deməli insanın fəaliyyətində dünyəvi və ruhani fəaliyyət, vəhdət təşkil edir. Onlar bu vəhdətin dialektikasını onda görürlər ki, dünyəvi fəaliyyət ruhani fəaliyyəti, ruhani fəaliyyət isə dünyəvi fəaliyyəti tamamlayır və bunların meyarı bir-birilə ölçülür.

Şərq fəlsəfəsində əsasən göstərilən göstəricilər sosial, iqtisadi, siyasi, hüquqi və mənəvi hadisələrin əsasını təşkil edir. Bu o deməkdir ki, sosial hadisələrin həlli, həmin göstəricilər əsasında baş verir. Şərq peripatetik filosofları həmin ideyaların mexanizmini onunla izah edirlər ki, iqtisadiyyat və siyasət, bir sözlə bütün sosial hadisələr öz-özlüyündə baş vermir və insanlara heç bir qanun və qanunauyğunluq halı diktə edilmir. Burada aparıcı olan və qanunları irəli sürən insanlardır. İqtisadiyyat və siyasətin mahiyyəti insanların mənəviyyatından asılı olaraq, bu və digər keyfiyyətlər kəsb edir. Deməli, bu baxımdan mənəviyyat bütün ictimai hadisələrin əsasını təşkil edir.

Şərq peripatetik fəlsəfəsində mənəviyyatın müəyyənedici amili kimi şərhi "təfəkkür" və "praktika" kateqoriyası ilə əlaqələndirir. Bu baxımdan təfəkkür-əqidədir, praktika isə əməldir. Onlar təfəkkür, yaxud əqidə ilə praktika arasında üzvü əlaqə olduğunu irəli sürməklə əqidəyə üstünlük verirlər. Həmin üstünlüyü, onlar belə izah edirlər ki, fəaliyyət edən şəxsin hərəkətləri onun əqidəsindən asılıdır. Bir sözlə, insanların düşüncələri, hərəkətləri, fəaliyyəti, ünsiyyəti, davranışı və bütün hadisələrə münasibəti onların əqidəsi ilə bağlıdır. Belə bir əqidə əsasında insanların yaratdığı cəmiyyətin əsasını ədalət təşkil edər.

Bundan əlavə Şərq peripatetik fəlsəfəsində təkcə ədalətin iqtisadiyyat və siyasətə müəyyənedici təsir deyil, həm də ədalət üzərində qurulmuş iqtisadiyyatın siyasətə, mənəviyyata, təsiri göstərir. Belə ki, ədalətin yaratmış olduğu iqtisadiyyat və siyasət mənəviyyata, təsir göstərməklə onu daha da möhkəmləndirib sosial qüvvəyə çevirir. Bütün bu əqidələrin toplusu cəmiyyətin vahid ədalət prinsipini təşkil edir. Beləliklə, Şərq peripatetik fəlsəfəsində bütün hadisələrin şərhi insan və onun əqidəsi ilə bağlanılır.

İnsan varlığı, yəni şəxsiyyəti, mənliyi bir çox amillər, o cümlədən ictimai, mədəni, psixoloji tərbiyəvi və sair amillərin nəticəsində formalaşır. Bu amillərin xarakterindən asılı olaraq insanda həyata bədbinlik yaradılarsa. Həyat yaşamaq onun üçün əzaba çevrilər. Bu əhval ruhiyyələr insanların idrakına təsir edir və nəticədə varlığı düzgün dərk edilmir. Çünki onun bədbin varlığı onun idrakına kölgə salır.

İnsanın varlığı, mənliyi, şəxsiyyəti ilə yanaşı onun xarakterik xüsusiyyətləri də vardır. Bu insanda sabitləşmiş əxlaq və davranış deməkdir. Mühit və işlə əlaqədar xarakter sabitləşir və həyat boyu insan düşüncəsində iz buraxır və idraka təsir edir. Belə ki, insan bütün hadisələrə öz xarakterinə uyğun baxır.

Beləliklə bütün tarixi dövrlərdə olduğu kimi, şərq peripatetik fəlsəfəsində də əqli təfəkkürün ayrılmaz tərkib hissəsi olan fəlsəfi düşüncələr və ümumiyyətlə fəlsəfi problemlərin qoyuluşu və həlli mənəvi mədəniyyət və intellektual səviyyəni inkişafı ilə əlaqədar daima dəyişərək zənginləşdirmişdir. Xüsusilə, sivilizasiyanın hazırki inkişaf səviyyəsində insanlar nəinki təfəkkürün nəzəri səviyyəsi, həm də adi şüurları ilə həyat həqiqətləri barədə fəlsəfi mülahizələr irəli sürməyə cəhd göstərirlər.

Şübhəsiz, fəlsəfi düşüncənin səviyyəsi adamların bilik səviyyəsindən və onların zehni fəaliyyətindən asılıdır. İnsan varlığının özünəməxsusluğu şərq peripatetik filosofları tərəfindən geniş tədqiq edilmiş və izah olunmuşdur.

İbn Sina tərəfindən dövrün fəlsəfi və elmi istiqamətində aparılan tədqiqatlarda Aristotelin fəlsəfi görüşləri nəinki şərh edilmiş həm də o daha da inkişaf etdirilmişdir. İbn Sinanın dahiliyi ondadır ki, onun tibb, fəlsəfə və təbiətə aid müddəaları indiki zamanda da mütəfəkkirlərin nəzəri diqqətindədir. İbn Sinanın fəlsəfi düşüncələrinin təsirini XIX əsr alimlərinin nəzəriyyələrində görmək olar. İbn Sinanın fikrincə əvvəlcə insanlar sürü halında yaşamış, sonralar tədricən təbiətdən ayrılaraq sosial vəziyyətə gəlib çatmışlar. İnsanlar bu yolda əkinçilik, maldarlıq, sənətkarlıq, ticarət, elm və incəsənət mərhələlərindən keçərək elə bir səviyyəyə gəlib çatır ki, maddi həyat zənginləşir və sivilizasiyaya çevrilir.

Şərq peripatetik fəlsəfəsinin görkəmli nümayəndəsi və Azərbaycanın dahi filosofu Əbülhəsən Bəhmənyar Mərzbani əksər Şərq filisofları kimi Aristotelin irsinə böyük hörmətlə yanaşmış və hadisələri şərq peripatetik rasionalizm mövqeyi nəzərindən şərh etmiş və hətta müəllimi ibn Sinanın məchul qalan bəzi müddəalarını aydınlaşdırmaqla orijinal və dəyərli əsərlər yaratmışdır.

Nizaminin xoşbəxtlik, səadət və habelə insanlıq haqqındakl dərin müddəaları hər zamanın insanları üçün mənalıdır.

Dünya miqyasında öz orijinal əsər və təlimləri ilə şöhrətlənən Şərq mütəfəkkirləri nəzəriyyə ilə təcrübənin, elmlə praktikanın vəhdəti, mühitin insana təsiri və habelə ziddiyyətlər haqqında təlim yaratmışlar. Tusinin amalını təşkil edən ideal insan, ideal ailə və ideal cəmiyyət bütün zəmanələr üçün aktualdır.

İnsan varlığı tarixi prosesin yer üzərində maddi və mənəvi mədəniyyətin inkişafının subyekti, həmçinin həyatın digər formaları ilə genetik bağlı olan bu formalardan əmək alətləri istehsal etmək qabiliyyətinə görə seçilən, aydın nitqə, təfəkkür və şüura malik olan biososial varlıq kimi izah edilməlidir. İnsan varlığı biososial varlıq kimi "ikili təbiətə" malik deyildir. Doğrudur bioloji amillər "birdəfəlik şəklində" fəaliyyət göstərməklə böyük əhəmiyyətə malikdir. Gələcəyin insanı zəkalı və humanist, hər şeyi bilməyə çalışan və fəal, eyni zamanda gözəllikdən həzz almağı bacaran insandır. Mənəvi və fiziki kamilliyin həqiqi vəhdəti idealını təcəssüm etdirən bütöv, hərtərəfli inkişaf etmiş şəxsiyyətdir. Təkrarolunmaz özünəməxsusluğa, nadir "mən"lik fərdliliyinə malik insan varlığı özünü ictimai varlıq kimi bərqərar edir.

**Nəticə**

Aparılmış elmi araşdırmaların məntiqi nəticəsi olaraq Azərbaycanın böyük mütəfəkkiri Nizami Gəncəvinin orta əsr şərq peripatetizm fəlsəfəsində insan amilinin rolu olduqca geniş işıqlandırılmış və yeni-yeni elmi nailiyyətlərin əldə olunmasına marağı daha da artırmışdır. O cümlədən insan varlığının müxtəlif fəlsəfi aspektləri, onları yaradan amillərin insan varlığına göstərdiyi əsas xüsusiyyətlər ətrafında geniş təhlillər aparılaraq hər bir şeir nümunəsinin fəlsəfi anlamı verilmişdir. İstər şeir vəznində, istərsə də verilmiş müxtəlif fəlsəfi mövzular ətrafında insan amilinin nə qədər incə olduğu müasir dövr üçün əhəmiyyətli olması qeyd edilmişdir.

İnsan varlığında insan amili də çox böyük yer tutur. Belə ki, insan amili insanın sosial, iqtisadi, istehza, elmi-texniki, təşkilat-idarəetmə münasibətlərinin və digər münasibətlərin sistemində mərkəzi yer tutur. İctimai həyatın müxtəlif sahələrində fəaliyyət subyekti kimi insana hər şey şamil edilir.

Tədqiq olunan mövzu ətrafında aparılımış elmi araşdırmalar bir daha onu deməyə imkan verir ki, orta əsr Azərbaycanfəlsəfi ədəbiyyatı tarixində dahi mütəfəkkir Nizami Gəncəvi irsinin öyrənilməsi müasir dövrümüz üçün zəngin bir sahəni əhatə edir və lazımi mənbə hesab edilir.

**ƏDƏBİYYAT**

1. Gəncəvi Nizami (1983). *Xosrov və Şirin*. Bakı: Yazıçı.
2. Xacə Nəsirəddin Tusi (2002). *Övsafül-Əşraf (Şərafət Sahiblərinin Vəsfi).* Bakı: Nurlan.
3. İbrahimov, S.M. (2011). *Şərq Peripatetizm Fəlsəfəsində Insan Amilinin Rolu (Dərs Vəsaiti).* Naxçıvan: İdeya.
4. Şərifli, K. (2009). Azərbaycan Əlyazma Kitabı və Kitabxanaları. Bakı: Nurlan.